# VƏTƏN CƏFAKEŞLƏRİ



*25 dekabr 2024-cü ildə Qazaxıstanın Aktau şəhəri yaxınlığında baş verən təyyarə qəzasında qurban gedən, öz qətiyyəti və təmkini ilə onlarla insanın qəzadan sağ çıxmasına vəsilə olan Azərbaycanın Milli Qəhrəmanları İqor Kşnyakinin, Aleksandr Kalyaninov və Hökümə Əliyevanın əziz xatirəsinə həsr edirəm.*

Ey Azərbaycanımın,
Ölməz qəhrəmanları!
Siz can, qan bahasına,
Qurtardınız canları.

Sizin igidliyiniz,
Dilimizdə dastandır.
Xatirəniz vətəntək,
Əbədi yaşayandır.

Siz öz qürurunuzdan,
Xalqa bir pay verdiniz.
Köksünü qabardaraq,
Başı uca etdiniz.

Ömrün son anında da,
Təmkinli davrandınız.
Neçə-neçə insanı,
Ölümdən qurtardınız.

Sizin qətiyyətiniz,
Vətən qətiyyətidir.
Sizə ən layiq olan,
Göylərin cənnətidir.

İqor və Aleksandr,
Təyyarə kapitanı.
Oldunuz bu vətənin,
Əbədi qəhrəmanı.

Heç nədən çəkinmədi,
Hökümə xanım o an.
İnsanlara güc verdi,
Səbrindən, inamından.

Adınız tarixdədir,
3 cəfakeş qəhrəman.
İnsanları qurtarıb,
Onlarçün qurban olan.

Heç vaxt unudulmasın,
Xatirəniz yad olsun.
Hər şey yaxşı olacaq,
Qoy ruhunuz şad olsun!



***Sevindik NƏSİBOĞLU***
***şair-publisist, AJB üzvü***